Azərbaycan Arxeologiyası
Khazar University Press
Volume 25 № 1 2023, 8-20
DOI: 10.5782/2218-0346.2023.25.1.8

# Azərbaycanda maddi mədəniyyət abidələrin tədqiqi (XX əsrin 1920-1940-ci illəri)

**Tamilla Kərimova-Kocayeva**
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
tomakerimova50@gmail.com

Məlumdur ki, Azərbaycanda arxeoloji tədqiqatlar üçün zəmin hələ XIX əsrin ikinci yarısında yaradılmışdı. Azərbaycana gələn mütəxəssislər, məmurlar, sadəcə olaraq, həvəskarlar ölkənin maddi mədəniyyət abidələri ilə maraqlanırdılar. Həm də, qeyd olunduğu kimi, bəziləri bu abidələrə sikkə dəfinələrinin basdırıldığı yer kimi baxır, digərləri isə onlarla elmi baxımdan – ötən əsrlərin maddi mədəniyyətinin qalıqları kimi maraqlanırdılar. Həmin abidələrə məhz belə yanaşma nəticəsində Azərbaycanda ilk illərdə, əsasən, dəfinə axtarışı və həvəskar xarakterli arxeoloji iş yaranmışdır. Azərbaycan maddi mədəniyyət abidələri XIX əsrdən etibarən dünyanın çox görkəmli tədqiqatçılarının: A.Yanovski - Qəbələ (1829), Dübua de Manpere – (1834), V.N.Xanıkov - Bərdə, Naxçıvan ( 1848), A.Berje - Muğan (1862), Jak de Morqan-Talış (1880), E.Resler - Qarabağ və Gəncəbasar (1892-1903), V.Belk - Daşkəsən və Gədəbəy, A.A.İvanovski, Q.O.Rozendorf, V.A.Skinder, N.Virxov, N.V.Fyodorov, L.S.Spitsin, A.V.İoakimov, B.Şults, O.Vensal, D.Berman və b. diqqətini cəlb etmişdir [7, c.13]. Qeyd etmək lazımdır ki, inqilaba qədər Azərbaycanda arxeoloji tədqiqatlar plansız və qeyri-elmi şəkildə, çox aşağı səviyyədə həvəskarlar və təsadüfi adamlar tərəfindən aparılmışdır. Qazıntılar Azərbaycanın qədim tarixini öyrənmək məqsədi daşımamışdı. Çoxsaylı arxeoloji qazıntılar əsasən qəbir abidələrində aparılaraq, yalnız nəfis hazırlanmış qiymətli maddi-mədəniyyət nümunələrinin qarəti, mənimsənilməsi və ya digər ölkələrin muzeylərində nadir eksponat kimi nümayiş etdirmək məqsədini güdmüşdür. Bununla belə, etiraf olunmalıdır ki, XIX əsrin axırlarında aparılan tədqiqatlar XX əsrin əvvəllərində Azərbaycanın zəngin tunc dövrü abidələrinin öyrənilməsi üçün zəmin yaratmışdır.

XX əsrin ilk illərində Azərbaycan arxeologiyasında, ölkənin sosial-siyasi həyatında keçid dövrü ilə bağlı müəyyən durğunluq müşahidə olunsa da, əsrin 20-ci illərindən respublikada arxeoloji iş artıq planlı şəkildə aparılmağa başlandı.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Tarix-etnoqrafiya seksiyasının fəaliyyətində respublika ərazisinin arxeoloji tədqiqi başlıca yer tuturdu. Bu işdə bölmə Azərbaycanın maddi mədəniyyət abidələrinin tədqiqinə və qorunmasına başçılıq edən idarələrlə əməkdaşlıq edirdi. Tarixi abidələrin mühafizə olunduğu və nümayiş etdirildiyi ilk belə elmi idarələrdən biri 1920-ci il oktyabrın 25-də Bakıda yaradılmış Azərbaycan Dövlət Muzeyi idi [3, f. 57, siy.1, qov. 75, v. 70 ]. 1922-ci ildə Şərqşünaslıq və Sosial Elmlər İnstitutunun nəzdində Azərbaycan Arxeologiya Cəmiyyəti yaradılmışdı. Cəmiyyətin ilk sədri tanınmış qafqazşünas L.Q.Lopatinski olmuşdur. O vaxtlar Azərbaycan Dövlət Muzeyində asari-ətiqənin mühafizəsi komissiyası fəaliyyət göstərirdi. 1923-cü ildə bu iki qurum Azərbaycan SSR İnqilab Komitəsinin sədri N.Nərimanovun imzası ilə birləşdirildi, 1924-cü il 4 mart tarixli 20 nömrəli dekretlə bu proses qanuniləşdirilmiş və cəmiyyət 1927-ci ildə Azərbaycan Asari-ətiqə, İncəsənət və Təbiəti Mühafizə Komitəsinə çevrilmişdi [21, c. 86-87].

Respublika Xalq Maarif Komissarlığının 1923-cü il iyunun 3-də təsdiq etdiyi Əsasnaməyə görə, komitə «respublika hüdudlarında asari-ətiqə və incəsənət abidələrinin mühafizəsi, qeydiyyatı, öyrənilməsi, onlara nəzarət məsələləri üzrə mərkəzi idarəetmə orqanı» idi [30, c.120]. Tağı Şahbazi Arxeoloji Komitənin sədri, akademik V.V.Bartold isə fəxri sədri seçilmişdilər. Komitənin tərkibinə Cemil Aleksandroviç (Nasifi) (sədr müavini), Nemətulla Şahtaxtinski (Xalq Maarif Komissarlığının idarə rəisi), Yevgeni Paxomov (Azərbaycan Dövlət Universitetinin dosenti), Davud Şərifov (Azərbaycan Dövlət Muzeyinin direktoru), Vasili Sısoyev (Komitənin məsul katibi), Xasay Usmiyev, Aleksey Uşkov və b. daxil idi. Komitənin 36 nəfər həqiqi üzvü var idi [22, c.182-183]. Sonra isə, 1927-ci ildə Xalq Maarif Komissarlığı kollegiyasının qərarı ilə Komitə Azərbaycan Asari-ətiqə, İncəsənət və Təbiəti Mühafizə Komitəsinə çevrilmişdi [3, f. 57, siy.1, qov. 911, v. 3; siy.7, qov. 31, v. 1-12; 24, s.84].

Əsrlər boyu Azərbaycan xalqının maddi-mədəniyyət sahəsində qazandığı nailiyyətləri qoruyub gələcək nəsillərə çatdırmaq üçün Azərbaycan SSR İnqilab Komitəsinin sədri N.Nərimanovun imzası ilə 1924-cü il 4 mart tarixli 20 nömrəli dekretlə arxeoloji işlər dövlət işləri kimi qanuniləşdirilmişdir [3, f. 57, siy.1, qov. 911, v. 3; siy.7, qov. 31, v. 1-12]. Qədim abidələri məhv edilməkdən qorumaq və qeydiyyata almaq məqsədilə Xalq Maarif Komissarı Şurası qərara almışdır ki, Azərbaycan SSR ərazisində olan bütün qədim abidələrin – saraylar, qala, karvansaray, körpü, qədim binalar, kurqanlar və s. dövlət qeydiyyatı aparılsın, Azərbaycan Arxeoloji Komitəsinin razılığı, ica-

zəsi olmadan yerlərdə təmir, bərpa və arxeoloji qazıntılar həyata keçirmək qadağan edilsin. Qədim abidələrin mühafizəsinə nəzarət və qeydiyyatı icra etmək XMK-nın nəzarəti altında Azərbaycan Arxeoloji Komitəsinə tapşırıldı [21, c. 94].

Azərbaycan Xalq Komissarları Şurasının sədri Q.Musabəyov 30 iyun 1925-ci ildə həmin qərara əlavə olaraq 45 №-li qətnamə imzaladı. Bu qətnamədə göstərilirdi ki, torpaq işləri, yaxud torpağın üstündə suyun yuyub apardığı, dağıntı və s. zamanı təsadüfən aşkar edilmiş arxeoloji, tarixi-bədii əhəmiyyətli bütün tapıntılar, xəzinələr, ayrı-ayrı əşyalar Azərbaycan Arxeoloji Komitəsi vasitəsilə Azərbaycan Dövlət Muzeyinə verilməlidir [21, c. 95].

Cəmiyyət Azərbaycan Arxeoloji Komitə və Azərbaycan Dövlət Muzeyi ilə birlikdə Xalq Maarif Komissarlığının Elmi Şurasına gələcək müştərək elmi-arxeoloji iş haqqında plan üzrə məruzə təqdim etmişdi. Azərbaycan Dövlət Muzeyinin və Azərbaycan Arxeoloji Komitəsinin nümayəndələri həm də Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Tarix-etnoqrafiya seksiyasının üzvü idilər.

Maddi-mədəniyyət əşyalarının nümayiş etdirildiyi və mühafizə olunduğu Azərbaycan Dövlət Muzeyinin, asari-ətiqənin qeydiyyatını aparan və onları mühafizə edən Arxeoloji Komitənin Azərbaycanda son dərəcə maraqlı, zəngin Son Neolit, Tunc, habelə ilk Dəmir dövrlərinin son dərəcə maraqlı, zəngin mədəniyyətinin öyrənilməsi vəzifəsini üzərinə götürmüş Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin əməkdaşlığı bir istiqamətdə aparılırdı. Cəmiyyətin ekspedisiyalarının aşkara çıxardığı bütün asari-ətiqə əşyaları Azərbaycan Arxeoloji Komitəsi vasitəsilə Azərbaycan Dövlət Muzeyinə verilirdi [24, c.84-85].

Hər hansı elmi, yaxud hökumət qurumları və idarələrinin Azərbaycanın tarixi, etnoqrafik, arxeoloji və ya geoloji baxımdan öyrənmək məqsədilə təşkil etdikləri ekspedisiyalarda mütləq Azərbaycan Dövlət Muzeyinin nümayəndəsinin iştirakı mütləq idi [29, c. 5].

I Ümumazərbaycan Diyarşünaslıq qurultayı (1924) Azərbaycanın tarixi keçmişinin öyrənilməsinə, habelə diyarşünaslıq hərəkatının inkişafına güclü təkan verdi. Azərbaycan Arxeoloji Komitəsinin elmi katibi və Cəmiyyətin Tarix-etnoqrafiya seksiyasının üzvü V.M.Sısoyev (1864 - 1933) qurultayda «Azərbaycan SSR-in qədim abidələri» mövzusunda məruzə etmişdi. Qurultayda arxeologiya sahəsində bütün respublika miqyasında iş aparılması, asari-ətiqə abidələrinin yerinin aşkarlanması, öyrənilməsi, təsviri, dəqiq uçotu və

qeydiyyatı üçün yeni-yeni ekspedisiyaların təşkil edilməsi barədə qərar qəbul olunmuşdu [29, c. 11-14].

Qız qalasının da arxeoloji tədqiqinə ötən əsrin 20-ci illərinin əvvəllərində başlanılmışdır. Sənətşünas, arxeoloq, pedaqoq, incəsənət elmləri doktoru professor V.M.Zummerin (1885-1970) rəhbərliyi altında bir qrup tələbə Qız qalasında arxeoloji qazıntılar aparmışdır. Orta əsr Bakı şəhərinin ilk tədqiqatçıları arasında S.B.Aşurbəyli də vardı. Onun Bakı üzrə ilk elmi araş-dırmaları bu dövrə təsadüf edir. O, "Qədim Bakının memarlıq binaları" adlı ilk məqaləsini yazmışdır [2, s. 16]. 1920-ci ildə Bakıdakı Şirvanşahlar saray kompleksində aparılan təmizləmə və təmir işləri arxeoloji qazıntılarla müşayiət olunurdu.

İlk Azərbaycan arxeoloq, etnoqraf, muzeyşünas və coğrafiyaşünas alim, tarix elmləri namizədi Davud bəy Şərifov (1885-1952) Azərbaycan Dövlət Tarix Muzeyinin direktoru (1923-1928) olmuş, arxeoloji, etnoqrafik, numizmatik fondların yaradılması və genişləndirilməsi sahəsində təşkilatçılıq işləri görmüş, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətin, Azərbaycan Arxeoloji Komitəsinin və digər elmi idarələrin işində fəal iştirak etmişdir. O, qurultayda «Azərbaycan SSR-də muzey işi haqqında» mövzusunda böyük məruzə ilə çıxış etmişdi. Qurultay vaxtilə Azərbaycan ərazisindən çıxarılmış və Rusiyanın müxtəlif idarələrində saxlanılan tarixi və mədəni abidələrin, təbiətşünaslıq kolleksiyalarının axtarışı və qaytarılmasını, habelə Azərbaycan Dövlət Muzeyinin elm və diyarşünaslıq təşkilatları ilə sıx əlaqə yaradılmasını vacib tədbirlərdən biri hesab etdi. Şərq incəsənəti və məişəti əşyalarının sonradan Azərbaycan Dövlət Muzeyinə verilməsi məqsədilə RSFSR Dövlət Fondundan seçilməsi üçün muzey işçilərinin ezamiyyətə göndərilməsini Xalq Maarif Komissarlığından xahiş etmək tövsiyə olunurdu [2, s. 5, 6, 14].

Qurultay incəsənət və mədəniyyət abidələrinin yerinin müəyyənləşdirilməsi, onların öyrənilməsi, çəkilişlər aparılması, təsviri, xalq yaradıcılığı nümunələrinin toplanması məqsədilə xüsusi ekspedisiyaların təşkilini zəruri saydı [2, s.11]. Respublikanın bir çox şəhərlərində ölkədə arxeologiyanın inkişafında böyük rol oynamış diyarşünaslıq muzeyləri yaradıldı.

«Azərbaycan Dövlət Muzeyinin Əsasnaməsi», Azərbaycan Arxeoloji Komiteti haqqında yeni Əsasnamə, habelə Diyarşünaslıq qurultayının qətnamələri Cəmiyyətin Tarix-etnoqrafiya seksiyasının, o cümlədən arxeologiya komissiyasının qarşısında duran bir çox mühüm vəzifələrin həllinə yönəldilmişdi və onların inkişafında böyük istiqamətləndiricilik və təşkilatçılıq rolu oynadılar. Tədqiqatlar keçmiş qazıntılar nəzərə alınmaqla aparılır və əvvəllər

açılmış abidələrin tədqiqinin təkmilləşdirilməsinə yönəldilmişdi. Azərbaycan arxeoloqları qazıntıları Moskva və Leninqradın mərkəzi institutlarının alimləri ilə birgə aparırdılar. Arxeoloji işlərin nəticələri müştərək əsərlərdə dərc olunurdu.

20-ci illərdən bəri respublikada artıq müntəzəm arxeoloji qazıntılar aparılırdı. Azərbaycanda arxeologiya işinin təməli Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsində mühazirə oxumaq üçün 1925-ci ildə Bakıya dəvət olunmuş akademik İ.İ.Meşşaninov (1883-1967) tərəfindən qoyulmuşdur. O, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəxri üzvü seçilir, cəmiyyətin tarix, ədəbiyyat, türkologiya və s. komissiyalarının işində yaxından iştirak edir. Görkəmli alim pedaqoji fəaliyyətlə yanaşı, intensiv çöl tədqiqatları ilə də məşğul olur. İ.İ.Meşşaninov Azərbaycanın qədim tarixinə və mədəniyyətinə dair bir sıra əsərlər dərc etdirmişdi. Həmin əsərlərdə alim ar-xeoloji abidələri ətraflı tədqiq etmiş, elmi təhlilini vermiş və gələcək öyrənilmə yollarını müəyyənləşdirmişdir. İ.İ.Meşşaninov Azərbaycan Milli Tarixi Muzeyinin arxeologiya fondunun yaradıcılarındandır. Hazırda burada 20 mindən çox qədim əşya mühafizə olunur. Akademik İ.İ.Meşşaninovun çoxsahəli elmi fəaliyyəti sahəsində gənc azərbaycanlı alim-mütəxəssislərinin: Ə.K.Ələkbərov, D.M.Şərifov, İ.M.Cəfərzadə, Ə.Ə. Ələsgərzadə, S.M.Qazıyev, İ.S.Əzimbəyov, Q.Quluzadə və başqalarının formalaşmasında praktik məktəb olmuşdur. İ.İ.Meşşaninovla birgə Bakıya gəlmiş Tatyana Passek və Boris Latınının apardıqları arxeoloji axtarışlar zamanı Tunc dövrünün sonu Dəmir dövrünün əvvəllərinə aid maddi mədəniyyət abidələri aşkar edilmişdi.

Cəmiyyət 1925-ci ildə V.M.Sısoyevin başçılığı ilə Şamaxıya maraqlı kəşfiyyat ekspedisiyası təşkil etmişdi. Ekspedisiyanın əsas məqsədi uzun illər Şirvanda Makedoniyalı İsgəndərlə bağlı bəzi rəvayətlərin həqiqət kimi qəbul edilib böyük hay-küyə səbəb olmasını aydınlaşdırmaq və əsassız şübhələrə son qoymaqdan ibarət idi. Azərbaycan şifahi xalq yaradıcılığında İsgəndər haqqında müxtəlif variantlı maraqlı əfsanə və rəvayətlərə rast gəlinir. Qeyd etmək lazımdır ki, onların sırasında «xəzinə» ilə bağlı rəvayətlər xüsusi maraq doğurmuşdur. Hətta bu rəvayətləri həqiqət kimi qəbul edib axtarış aparanlar da olmuşdur. Belə ki, ilk «xəzinəaxtaranlar» Şamaxı ətrafındakı bu xəzinəni tapmaq üçün buraya hələ Sasani padşahları və Nadir şah dövründə gəlmişdilər. Avropanın hər yerindən missionerlər və səyyahlar bu rəvayətə inanaraq həmin «xəzinəni» tapmaq üçün müxtəlif illərdə Şamaxıya gəlmişlər. Məsələn, 1820, 1822, 1840, 1859 və 1872-ci illərdə yunanlar, ingilislər, erməni keşişi, gürcü və rus arxeoloqları, isveçrəlilər bu məqsədlə Şamaxıya

axışmışlar. Makedoniyalı İsgəndərin «xəzinəsi» ilə Qafqaz canişini feldmarşal A.V.Baryatinski, tanınmış rus alimləri: Bartold və Marr da maraqlanmışlar [28, c.4]. Makedoniyalı İsgəndərin «xəzinəsi» ilə bağlı cəhdlər istənilən nəticəni verməsə də, bütün bu axtarışlar və qazıntılar zamanı xalqımızın mənəvi sərvətləri, qiymətli əşyalar və sikkələr, gümüş və qızıl qablar, nadir farfor nümunələri əldə olunur, Azərbaycanın maddi-mədəniyyət nümunələri xaricdə tədqiq etmək adı ilə yadellilər tərəfindən daşınıb aparılırdı. «Xəzinə» həvəskarlarının isə ardı-arası kəsilmir, bu məsələ böyük hay-küyə, narahatçılığa səbəb olurdu. «Xəzinə» ətrafında davam edən mübahisələr Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da səngiməmişdi [8, s.33].

Hələ 1924-cü ilin noyabrında Leninqraddan Bakıya gəlmiş milliyyətcə alman olan Avqust Vasilyeviç Mayer adlı bir şəxs Bakıdakı baptist icmasının vaizi P.F.Savelyevlə birlikdə Respublika Xalq Komissarları Sovetinin sədri Q.Musabəyova məktubla müraciət etmişdilər. Məktubda iddia edilirdi ki, Şamaxıda, ancaq onlara məlum olan yerdə Makedoniyalı İsgəndərin hesaba gəlməz «xəzinəsi» basdırılmışdır. Analoji məzmunda məktublar Ümumittifaq MİK-in sədri M.İ.Kalininə və digər instansiyalara da müraciət olunmuşdu. Xalq Komissarlar Soveti, öz növbəsində, bu məsələnin aydınlaşdırılmasını Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinə tapşırmışdı. Cəmiyyətin və Arxeoloji Komitənin nümayəndələri: D.Şərifov, İ.Cəfərzadə, Ə.Ələkbərov, A.Fituni, V.Sısoyev və V.Zummerin, Azərbaycan Dövlət Universiteti tarix-filologiya fakültəsinin müəllimi Mehdixan Yerivanskinin və başqalarının iştirakı ilə keçirilən birgə iclasda bu məsələ müzakirə olunmuş və konkret tarixi faktlar əsasında sübut edilmişdir ki, Makedoniyalı İsgəndər heç vaxt Azərbaycanda olmamışdır və deməli, onun ərazisində xəzinə basdıra bilməzdi. Xəzinə ətrafındakı əfsanə və miflərə son qoymaq məqsədi ilə Şamaxıya V. Sısoyev, A.Fıtuni, Ə.Ələkbərov və V.Zummerdən ibarət arxeoloji kəşfiyyat eks-pedisiyası göndərmək qərara alındı. Bu qrup ətrafdakı yerləri öyrənmiş, yerli əhalinin dilindən Makedoniyalı İsgəndər haqqında xeyli rəvayəti yazıya almış və aparılmış ekspedisiyanın nəticələrini Cəmiyyətin «Xəbərləri»ndə dərc etdirmişdi. Məsələn, V.M.Sısoyev «1925-ci il mayın 1-12-də Şamaxı qəzasına arxeoloji məqsədlə səfər (Makedoniyalı İsgəndərin xəzinəsi haqqında əfsanə)», A.P.Fituni «Makedoniyalı İsgəndərin Şirvandakı xəzinəsi haqqında xalq əfsanələri» məqalələrini yazmışdılar [19, c. 194].

1925-ci ildə SSRİ Elmlər Akademiyasının 200 illiyi münasibətilə Moskvaya gəlmiş 92 yaşlı hind alimi, Hindistan Antropologiya Cəmiyyəti Bombey şöbəsinin katibi, Bombey Universitetinin professoru Cavaci Camşedji

Modi Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin dəvəti ilə Bakıda oldu. Bakıda ikən o, İçərişəhərdəki Qız qalasını, Abşeronun Suraxanı kəndində hind atəşpərəstlərinin məbədi «Atəşgah»ı, habelə ekspedisiya ilə Dərbəndə gedərək, Dərbənd keçidini və «Narınqala» qalasını seyr etdi. Professor C.Modi atəşpərəstliyə dair 80-dən çox əsərin müəllifidir. O, 1925-ci il avqustun 27-də Cəmiyyətin Tarix-etnoqrafiya seksiyasında «Atəşpərəstlər», «Pars-atəşpərəstin gözündə Azərbaycanın əhəmiyyəti» mövzularında məruzələr etmişdi. Alim qeyd edirdi ki, köhnə hind kitablarında Xəzər dənizinin qərb sahillərində atəşpərəstlərin çoxlu sayda ibadətgahlarının olduğu xəbər verilir [4, s. 37-38; 20, c. 117].

1926-cı ilin yayında (may-iyul) Cəmiyyətin və onun üzvlərinin qüvvəsi hesabına görkəmli rus arxeoloqları akademik İ.İ.Meşşaninovun rəhbərliyi və professor A.A.Millerin başçılıq etdiyi Cənubi Qafqaz elmi Assosiasiyası ekspedisiyasının iştirakı ilə Dağlıq Qarabağa - Şuşa şəhəri yaxınlığındakı Xocalı kurqan ərazisinə və Naxçıvan Respublikasındakı Qızılvənq (Qızılburun) nekropolun ətrafına iki arxeoloji ekspedisiya təşkil olunmuş, unikal arxeoloji tapıntılar əldə olunmuşdu. İ.İ.Meşşaninovun çöl gündəliyində Qarabağa və Naxçıvana təşkil olunan bu ekspedisiya «Birinci Azərbaycan ekspedisiyası» kimi qeyd olunmuş, səfərə çıxdığı həmin gün - mayın 20-si isə xüsusi bir gün kimi verilmişdir.

Prof. A.A.Miller (1875-1935) Qafqazın arxeologiyası və etnoqrafiyası üzrə ixtisaslaşaraq, Rusiya Muzeyinin direktoru (1910-1920) və Rusiya Maddi Mədəniyyət Tarixi Akademiyası Etnologiya bölməsinin sədri (1918-1933), rus arxeologiyasında yeni istiqamətin ideoloqu idi. O, mürəkkəb stratiqrafiyalı abidələrin tədqiqinin yeni üsullarını işləyib hazırlamışdır. «İbtidai icma cəmiyyətinin arxeologiyası» kafedrası üzrə Arxeologiya İnstitutunun professoru, Peterburq Universitetinin «Tarixəqədərki arxeologiya» kafedrasının professoru idi. Arxeologiyaya dair bir sıra elmi işləri vardır. 1926-cı ildə A.A.Miller nümayəndə kimi I Ümumittifaq Türkoloji qurultayda iştirak etdi və orada «Türk xalqlarının təsviri incəsənəti» mövzusunda məruzə ilə çıxış etdi.

1926-cı ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin dəvəti ilə tarix-etnoqrafiya seksiyasının üzvləri ilə birlikdə Naxçıvana ekspedisiyada iştirak etdi. Prof. A.A.Millerin Naxçıvan şəhəri yaxınlığındakı Qızılvənd (Qızılburun) qəbiristanlığında qazıntı apararaq, qədim yaşayış məskəni qeydə almışdı. Ekspedisiyada Bakıdan göndərilən digər elmi heyətlə birgə Cəmiyyətin Naxçıvan cəmiyyətinin üzvləri – elmi katib Mirbağır Mirheydərzadə və

arxeoloji bölmənin üzvü Yusif Qazıyev də yaxından iştirak etmişdilər. Ekspedisiya Qızılvənq nekropolu rayonunda dəmir və tunc dövrü mədəniyyətlərinə aid 7 qəbirdən ibarət zəngin elmi material toplamışdı. Burada görülən işlər haqqında A.A.Miller 1926-ci il sentyabrın 25-də Cəmiyyətin 200 nəfərlik ümumi iclasında məruzə etmişdir. Onun arxeoloji tədqiqat barədə əsəri çap edilmişdir [11, s.148; 26].

Azərbaycanın tunc dövrü abidələri içərisində özünəməxsus yer tutan Naxçıvan abidələri və onlardan əldə edilən maddi-mədəniyyət nümunələri, xüsusilə boyalı qablar İ.İ.Meşşaninov tərəfindən işıqlandırılmışdır. Tədqiqatçı Qızılvənq (Qızılburun) boyalı qablarını Yaxın Şərqin, Çinin eyni tip keramikası ilə (Elam, Anau, Xenan, Qansu keramikası ilə) müqayisə etmiş və Naxçıvan boyalı qablarının yerli zəmin əsasında inkişaf etdiyini göstərmişdir. Eləcə də Azərbaycan boyalı qablar mədəniyyətinin Cənubi Qafqaz və Yaxın Şərq boyalı qablar mədəniyyəti ilə əlaqəsi vurğulanmışdır [12, s.18-19]. Sonralar Azərbaycan ərazisində aşkar olunan eyni tipli qəbirlər ayrıca Naxçıvan və Qızılvəng (Qızılburun) arxeoloji mədəniyyətlərini ayırd etməyə imkan verdi [14, c.51; 18, c.128; 5, s. 14].

Həmin ekspedisiyaların nəticələri çox əhəmiyyətli olub, əslində, Azərbaycan ərazisindəki tarixəqədərki mədəniyyətlərin öyrənilməsinin əsasını qoydu. Bu qazıntıların nəticələri təkcə keçmiş SSRİ-nin görkəmli arxeoloqlarını deyil, bu münasibətlə Cəmiyyətlə yazışan Qərbi Avropa mütəxəssislərinin: ingilis misirşünası Uilyam Metyu Flinders Pitri, Vyana xalqşünası Karl Ferdinand Leman-Haupt, fin tarixçisi və arxeoloqu Arne Mixael Talqren, fransız şərqşünası Silven Levi, hind sanskrioloqu Civadji Modi və başqalarının da diqqətini cəlb etmişdi [25, c. 22-23].

1926-cı ildə D.M.Şərifov Qəbələ şəhərinin xarabalıqları ərazisində kəşfiyyat xarakterli arxeoloji qazıntı aparmışdır. Qəbələ şəhərinin Qafqaz Albaniyasının eramızın I əsrindən xeyli qabaq paytaxt olduğu fikrini ilk dəfə o söyləmişdir. D.M.Şərifov həm də Avtoran ovalığındakı Yaloylutəpə deyilən yerdə, Şəki şəhərinin cənub-şərqində yerləşən Nic kəndində aşkar etdiyi qədim qəbirləri tədqiq etmişdir. Yaloylutəpə mədəniyyəti böyük maraq doğurduğundan 1926-cı ildə yaranan ekspedisiyada D.M.Şərifov, İ.M.Cəfərzadə, M.Şıxməmmədbəyov, R.Əfəndiyev və rəssam K.A.Klementyeva iştirak etmişdilər. E.ə. III əsr eramızın II əsrinə aid Yaloylutəpə torpaq qəbirlərinin orijinal keramikası onları tədqiq etmiş T.S.Passek, B.A.Latının, A.A.Yessen və digər rus alimlərinin də diqqətini cəlb etmişdir. Yaloylutəpədəki qazıntılar, faktik olaraq, oturaq əhaliyə məxsus yeni növ arxeoloji mədəniyyətin kəşfi

ilə müəyyən edilmişdir ki, bu mədəniyyət qabların forması, işlənmə texnikası, yandırılması, gilin rəngi və s. ilə digər mədəniyyətlərdən seçilir. Arxeoloji işlərin nəticələri «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Xəbərləri»ndə, «Azərbaycan Asarı-ətiq Abidələrinin Mühafizəsi Komitəsinin Xəbərləri»ndə dərc olunmuşdu [18, c.128; 3, f. 57, siy.7, sax. vah. 5, v. 6]. D.M.Şərifov apardığı qazıntılar elmi ədəbiyyata Yaloylutəpə mədəniyyəti adı ilə daxil edilmişdir.

1926-cı il iyunun 22-də D.Şərifov və onunla birlikdə ekspedisiyada iştirak edən Pedaqoji İnstitutun tələbəsi İ.Cəfərzadə Gəncədən 25-30 km cənubqərbdə yerləşən Çovdar kəndi ətrafında da qazıntılar aparmış, son tunc dövrünə aid 42 daş qutu və kurqan qəbirləri tədqiq etmişdir. 20-ci illərin sonralarında baş verən proseslər və bir sıra struktur dəyişiklikləri, Cəmiyyəti, Azkomstaris və Azərbaycan Dövlət Muzeyi arasında olan münasibətlər və ən sonda Manusyanın muzeyə direktor təyin olunmasıdan sonra D.Şərifovu tamamilə arxeologiyadan uzaqlaşmağa, etnoqrafiya və müəllimlik fəaliyyəti ilə məşğul olmağa vadar etdi [9, s. 15].

1923-1926-cı illər ərzində arxeoloqlar tərəfindən Xan Sarayı, Əskəran qalası, Beşbarmaq və Xıdırzində abidələri, Gəncə şəhəri və Nizami məqbərəsi, Gəncənin dəmir darvazası, Şamaxı şəhər yeri, Bərdə və Lənkəranda maraqlı tədqiqatlar aparılmış, bunlar barədə onlarla əsərlər yazılmışdır [13, s. 197]. Cəmiyyət 1925-1926-cı ildə Dağlıq Qarabağ, Qəbələ, Gəncə və Naxçıvan ərazilərində arxeoloji tədqiqat işləri aparmış və onların ilk arxeoloji xəritələri tərtib edilmişdir.

20-ci illərin ortalarında və II yarısında orta əsrlərə aid şəhər və qalaların arxeoloji baxımdan öyrənilməsi geniş vüsət aldı. Bakı, Şamaxı, Qəbələ, Bərdə, Beyləqan, Xaraba-Gilan şəhər xarabalıqlarının, Gülüstan, Buğurt, Bəllabur, Əlincə, Abşeron qalalarının, Pirsaatçay yaxınlığında və Əlincəçay üzərindəki xanəgah xarabalıqlarının arxeoloji tədqiqinə səy göstərildi [2, s.16].

Diqqətəlayiq haldır ki, Xaraba-Gilanda 1926-1928-ci illərdə aparılan arxeoloji qazıntılar Azərbaycanın Arxeoloji Komitəsinin icazəsi ilə iki mərkəz - Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti və Qafqaz Tarix-Arxeologiya İnstitutu tərəfindən təşkil olunmuşdur. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsinin üzvləri, Bakıdan gələn Cəmiyyətin və Azərbaycan Arxeoloji Komitəsinin üzvləri V.M.Sısoyev və İ.Əzimbəyovla birgə Xaraba-Gilanda aparılan tədqiqatlarda iştirak etmişlər. Tədqiqatlat zamanı əldə edilmiş epiqrafik material – gəc üzərində olan dini məzmunlu kitabələr, XIII və XIV əsrlərə aid epitafiyalar İsa Əzimbəyovun tərəfindən tədqiq

edilmişdir. Qazıntılar zamanı aşkarlanmış artefaktların elmi tədqiqindən sonra Naxçıvan muzeyinə təhvil verilməsi haqqında məsələ qaldırmışdı [11, s.148].

Cəmiyyətin təşkil etdiyi elmi səfərlər zamanı bir sıra digər tarixi abidələr qeydə alınmış və imkan dairəsində öyrənilmişdir. Tarixi abidələrin öyrənilməsində Cəmiyyətinin Naxçıvan şöbəsinin elmi katibi M.Mirheydərzadənin (1877-1956) fəaliyyəti diqqətəlayiqdir. O, Ordubad dairəsinə etdiyi səfər zamanı buradaki tarixi abidələr haqqında ətraflı məlumat toplamışdır. Onun Şərurun 16 kəndində olan tarixi abidələr, tarixi yerlər, tayfa adları, adət-ənənələr və s. haqqında faktlar da çox əhəmiyyətlidir. M.Mirheydərzadə Şahtaxtı kəndi yaxınlığındakı Gavurqaladan, Yurdçu kəndindən və Qarabağlardakı Qalaçıq ətrafından çoxlu saxsı qablar və digər əşyalar, ayrı-ayrı əsrlərə aid sikkələr tapmışdır. O, ilkin müşahidələrinə əsaslanaraq “Yurdçu, Qarabağlar və Şahtaxtı kəndlərinin ortalığının, xüsusən Gavurqalanın ətrafının Araz çayı kənarına kimi vaxtilə böyük bir şəhər olduğu” qənaətinə gəlmişdir. Bunlardan başqa Şərur ərazisindəki bir sıra dini və xatirə abidələri: Yengicə, Tənənəm, Xincab, Qarabağlar, Daşarx kəndlərindəki pirlər, Xincabdakı Sancı daşı, Parçı, Qarabağlar, Zeyvə-Düdəngədə olan imamzadələr, Qarabağlar və Qıvraqda köhnə qəbirlər, daş qoç heykəli, üzərində ilan təsviri çəkilmiş daş, Qarabağların qədim qəbiristanlığındakı türbələr və s. haqqındakı faktlar da maraqlıdır. Cəmiyyət 1925-1926-cı illərdə Əlincə qalasında, Cəhri, Nehrəm yaxınlığındakı “Ölü şəhər” (Babək rayonu), Milax və Ərəfsə (Culfa rayonu), Əbrəqunus dairəsinin bir sıra kəndləri yaxınlığında kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar aparmışdır [11, s.149].

M.Mirheydərzadənin elmi-tədqiqat sahəsindəki bilik və bacarığını nəzərə alaraq Naxçıvan MSSR XMK onu 27 avqust 1930-cu il tarixli, 352 saylı əmrlə Naxçıvan Dövlət Muzeyinə direktor təyin edir. Qeyd etmək lazımdır ki, M.Mirheydərzadə ardı kəsilmədən qüsursuz, həm də çox səmərəli olaraq 15 il Dövlət Muzeyinin direktoru vəzifəsini aparmışdır. M.Mirheydərzadənin direktor olduğu bu illərdə Naxçıvan Dövlət Ölkəşünaslıq Muzeyi, doğrudan da, muzey şəklinə düşərək xalqımızın mədəni inkişafına dair çoxlu maddi-mədəniyyət materialları axtarıb tapmış və hal-hazırda zəhmətkeşlər qarşısında nümayiş etdirilir [24, c.449].

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti 1927-ci ildə İ.İ.Meşşaninovun rəhbərliyi ilə Mil düzünə, Kiçik Qafqaz yaylasında yerləşən Dəstəfur (indiki Daşkəsən) rayonuna ekspedisiya təşkil olunmuşdu. Mil düzündəki bir sıra məntəqələrdə küp qəbirlər aşkar olunmuş, Dəstəfur rayonunda isə Azər-

baycanda ilk dəfə olaraq, iri qaya parçalarından bərkidici məhlul işlədilmədən hörülmüş dörd siklopik tikilisi tədqiq edilmişdi [14, c. 49].

Elə həmin il Y.A.Paxomov (1880-1965) Şamaxı şəhərinin həndəvərindəki Çuxuryurdda yerüstü və yeraltı qədim abidələri öyrənməyə başlamışdı. Növbəti səfər 1925-ci ildə Laçında insan cənazəsinin qalıqları olan iri küpləri aşkar etmiş V.M.Sisoyevin iştirakı ilə 1928-1930-cü illərdə olmuşdur. Muğan düzündə qazıntı zamanı Sabirabad şəhəri yaxınlığındakı Cəfərxan qəbiristanlığında çoxsaylı küp qəbirləri və digər arxeoloji dəyərlər aşkar edilmişdir [17, c.60].

Akademik İ.İ.Meşşaninovun rəhbərliyi ilə daha bir ekspedisiya yaradıldı. Onun tərkibinə Ə.H.Ələkbərov, İ.M.Cəfərzadə, T.S.Passek, B.A.Latınin, Y.İ.Hummel, İ.P.Şeblıkin, V.M.Sısoyev, İ.S.Əzimbəyov, A.A.Yessen, C.İ.Aleksandroviç və b. daxil idi. Akademik İ.İ.Meşşaninovun rəhbərliyi altında Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin ekspedisiyası 1928-ci ilin yayında Kiçik Qafqazın yayla hissəsində siklopik tikililərinin öyrənilməsini davam etdirmiş, Xaçbulaq, Qalakənd, Qarabulaq və digər kəndlərin ətrafında 10-dan çox siklopik istehkamı aşkar olunmuşdu. Onlar qazıntıların nəticələrini öz əsərlərində işıqlandırmışlar.

1929-cu ilin payızında Tərtər rayon mərkəzinin yaxınlığındakı Xocalı kurqan sahəsindən bir qədər aralıda yerləşən məntəqədən başlayaraq, Gəncə şəhərinə qədər Kiçik Qafqazın ətəklərinin öyrənilməsi üçün ekspedisiya təşkil edildi. Ekspedisiyaya akademik İ.İ.Meşşaninov rəhbərlik edirdi. Aydınlaşdırıldı ki, bu dağətəyi zolaq kiçik kurqanlarla zəngindir. Onların arasında ayrı-ayrı yerlərdə tək-tək, bəzən isə qrup halında, 15-20 metr hündürlükdə iri kurqanlar ucalır [18, c.128].

20-ci illər Azərbaycan arxeologiyası üçün Leninqrad və Moskva muzeylərində saxlanılan materiallar üzrə inqilabaqədərki arxeoloqların işlərinin elmi cəhətdən öyrənilməsi və nəticələrinin ümumiləşdirilməsi böyük əhəmiyyətə malik idi. Leninqrad alimləri T.S.Passek və B.N.Latınının E.Resler, V.Belk, A.A.İvanovski, Jak de Morqan, Q.O.Rozendorf və başqalarının inqilabaqədərki qazıntılarından və dərc edilmiş əsərlərindən məlum olan Azərbaycan arxeoloji abidələrinin elmi cəhətdən dövrləşdirilməklə və ərazicə qruplaşdırmaqla sistemləşdirildiyi «Şimali Azərbaycan tarixəqədərki oçerkləri» adlı tədqiqatı diqqətə layiqdir. Bununla əlaqədar, Assuriya çarı Adadniarinin xatırlandığı mixi yazılı muncuq elmi maraq doğurmuşdu. T.S.Passek və B.N.Latınin onu E.Reslerin 11 №-li Xocalı kurqanından çıxardığı metal əşyaların araşdırılması prosesində tapmışdılar. İ.İ.Meşşaninov professor

V.K.Şileyko və V.Struve tərəfindən oxunmuş Xocalı muncuğunun, Assuriya bəzək əşyasına aid olduğu və Qaraçay sahilində yaşayan yerli feodala ənənə kimi Assuriya çarından bağışlanmış hədiyyə kimi düşdüyünü və ya hücum zamanı ölənin üzərində dəfn olunmuş bir əşya kimi qəbul etmişdir. Bu muncuq abidənin dövrünü dəqiq müəyyən etməyə imkan vermişdir. İ.İ.Meşşaninovun «Yazılı Assuriya muncuğu Azərbaycanda» (1926), «Xocalı məzarlığındakı Assuriya muncuğu məsələsinə dair» (1927) məqalələri bu qiymətli tapıntının və onun üzərindəki kitabənin öyrənilməsinə həsr olunmuşdu. Azərbaycan arxeologiyasının öyrənilməsinin 1929-cu ilə qədərki vəziyyəti İ.İ.Meşşaninovun «Azərbaycanın tarixə qədərki abidələrinin son beş ildə öyrənilməsi» əsərində əksini tapmışdır.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin üzvü, ilk Azərbaycan tarixçi, arxeoloq və etnoqraflarından biri, tarix elmləri namizədi, Qafqaz Tarix-Arxeologiya İnstitutunun üzvü görkəmli alim Ələsgər Ələkbərov (1891-1939) 1923-cü ilin noyabrından hələ tələbə ikən onun işinə həvəslə qoşularaq geniş fəaliyyət göstərmişdir. Onun arxeologiya, etnoqrafiya ilə yanaşı, folklora, musiqiyə, incəsənətə, memarlığa, dinə, xalq adət-ənənələrinə, teatra, mərasim və bayramlara aid çoxlu elmi-nəzəri fikirləri olmuş və həmin fikirlər bu gün də öz elmi əhəmiyyətini itirməmişdir. O, Azərbaycan arxeologiyası və etnoqrafiyasının öyrənilməsində bir çox elmi ekspedisiyaların təşkilatçısı və iştirakçısı olmuşdur. Naxçıvan MR, Dağlıq Qarabağ, Beyləqan, Quba, Qazax, Tovuz, Kəlbəcər, Laçın, Zəngilan, Füzuli, Abşeron kəndlərini gəzmiş və bu yerlərin maddi-mədəniyyət abidələrini və adət-ənənələrini öyrənmiş və bunların haqqında elmi-nəzəri məqalələr yazmışdır.

1926-1928-ci illərdə Ə.H.Ələkbərov Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin məsul katibi, Cəmiyyətin Mərkəzi bürosunun üzvü olmuş, seksiyalara rəhbərlik etmişdir. O, eyni zamanda Arxeologiya Komitəsinin işində iştirak etmiş, onun idarə heyətinin üzvü olmuşdur. 1927-1928-ci illərdə Ə.H.Ələkbərov Azərbaycan Dövlət Muzeyi idarə heyətinin üzvü, 1929-cu ildən isə həmin muzeyin maddi-mədəniyyət şöbəsinin müdiri olmuşdur. Alimin elmi fəaliyyəti və yaradıcılığı İ.İ.Meşşaninovun rəhbərliyi altında davam etmişdir. O, 1926-cı ildə İ.İ.Meşşaninovun rəhbərlik etdiyi iki ekspedisiyada fəal iştirak edərək Xocalı kurqanını və Naxçıvanda Araz çayı üstündə məşhur Qızılvəng (Qızılburun) məbədini tədqiq etmişdir. Burada qazıntı nəticəsində əldə edilən məlumatlar Kiçik Qafqazın şimal-qərb mədəniyyətinin, həmçinin Qazaxdan Füzuliyə qədər olan ərazinin, o cümlədən Araz çayının yuxarı hissəsi və Ararat vadisindəki maddi-mədəniyyətin öyrənilməsində açar rolunu

oynamışdır. 1926-cı ildə Ə.H.Ələkbərov Naxçıvan, Zəngəzur rayonlarını və Beşbarmaq dağının ətraflarını gəzib dolaşır. Arxeoloji və etnoqrafik materiallar toplayaraq, Ə.H.Ələkbərov çöl işinə çoxlu qüvvə və vaxt ayırırdı. O, hər il Azərbaycanın rayonlarında bir neçə ay ərzində arxeoloji qazıntılar və etnoqrafik tədqiqatlar aparırdı. Səfərlərdən qayıtdıqdan və materialların səliqəli işlədilməsindən sonra müəllif öz müşahidələrini ümumiləşdirir və məqalələrini elmi və dövri nəşrlərdə çap etdirirdi. Onun elmi maraq dairəsi çoxcəhətli və zəngin olmuşdur. Azərbaycanda küp qəbirləri mədəniyyətinin öyrənilməsi, Azərbaycanda qədim şəhər mədəniyyəti kimi mühüm məsələlərin tədqiq edilməsi onun adı ilə bağlıdır. 1927-ci ildən o, sərbəst arxeoloji işlər aparmağa başlamışdır. Elə həmin il onun rəhbərlik etdiyi ekspedisiya Mil düzündə küp qəbirləri mədəniyyətinin arxeoloji tədqiqini uğurla apardı və qiymətli etnoqrafik material topladı. Həmin ildə o, İ.İ.Meşşaninovun rəhbərlik etdiyi Gəncə arxeoloji-etnoqrafik ekspedisiyasında fəal iştirak etdi. 1928-ci ildə Ə.H.Ələkbərovun iki ekspedisiyası Talışda və Gəncə rayonunda arxeoloji və etnoqrafik tədqiqatlar apardı. 1929-cu ildə İ.İ.Meşşaninovun ekspedisiyasının tərkibində Ağdam və Gəncə rayonlarında çöl arxeoloji-etnoqrafik tədqiqatları aparılmışdır. Ə.H.Ələkbərov Azərbaycanın orta əsrlərə aid qiymətli abidələrindən sayılan Örənqala (Beyləqan) qazıntılarının ilk təşkilatçılarından olmuşdur. Arxeoloji-etnoqrafik materiallarla yanaşı, o, incəsənətə və folklora dair materialların toplanmasına böyük diqqət yetirirdi. 1931-ci ilin hesabatında Ə.H.Ələkbərov qeyd edirdi ki, bir neçə il ərzində o, Azərbaycanın xalq teatrına dair materiallar toplamışdı. O, 15 xalq pyesi yazmışdı. 1931-ci ildə akademik N.Y.Marrın təqdimatı ilə Qafqaz Tarix-Arxeologiya İnstitutuna üzv seçilmişdir.

Sonrakı illərdə Ə.H.Ələkbərov əsas diqqətini Naxçıvan rayonunun abidələrinə yönəltmişdir. Burada onun tədqiqatlarının obyekti, yalnız Azərbaycanın deyil, bütün Cənubi Qafqazın və Yaxın Şərqin qədim tarixini öyrənmək üçün olduqca qiymətli material verən, boyalı qablar mədəniyyəti oldu. Bu tədqiqatlar sovet və xarici mütəxəssislər tərəfindən layiqincə qiymətləndirilmişdir. Bundan əlavə, ilk dəfə olaraq Azərbaycanın tarixi-etnoqrafik xəritəsini tərtib edən Ə.H.Ələkbərov böyük elmi dəqiqliklə azərbaycanlılara məxsus beş mindən artıq yaşayış yerini həmin xəritəyə salmışdır. Tədqiqatçı «Azərbaycanlılar» əsərində aktual və eyni zamanda, olduqca çətin bir məsələyə toxunmuş, xalqımızın tarixi mənşəyini elmi əsaslarla müəyyənləşdirməyə çalışmışdır. O, çox haqlı olaraq müasir azərbaycanlıların mənşəyini alban tayfaları ilə bağlamışdır ki, bu mühüm çətin düzgünlüyü sonralar üçcildlik «Azərbay-

can tarixi»ndə və onlarca tədqiqat əsərlərində sübuta yetirilmişdir. O, Azərbaycanın bir sıra muzeylərinin yaradılmasında fəal iştirak edir, gənc kadrların: tarixçilərin, etnoqrafların və arxeoloqların hazırlanmasına yorulmaq bilmədən çalışırdı.

Ə.H.Ələkbərov Azərbaycanda ilk dini etiqadlarla bağlı olaraq meydana gələn pir və ocaqların, müqəddəs yerlərin mənşəyinə dair orijinal fikirlər də söyləmişdir. Onun elmi fəaliyyətində diqqəti cəlb edən problemlərdən biri də islamın Azərbaycanda yayılması və onun öyrənilməsidir. Müəllif Azərbaycanda islamın cərəyan və təriqətlərindən, onların mənşəyindən və meydana gəldiyi konkret tarixi şəraitdən, islamın tarixindən, islam xəlifələrinin fəaliyyətindən, islamın ayin və mərasimlərinin Azərbaycan şəraitində təzahüründən, müridizmdən, şəriət məsələlərindən, seyidlərdən, islam dinindəki məktəblərdən - Maliki, Hənbəli Şafa, hənəfilikdən xüsusi danışır. Ə.H.Ələkbərov Azərbaycanda sufizm təriqəti və onun Nəqşibadi ordeninin yayılması haqqında da müəyyən məlumatlar verir. Ziyalılara qarşı hər yerdə başlanan həbslərin və repressiyaların geniş yayıldığı bir dövrdə Ə.H.Ələkbərov çəkinmədən alim və vətəndaş mövqeyindən çıxış edərək ermənilərin azərbaycanlılara qarşı etdikləri cinayəti terror adlandırmışdır. Onun 80 il bundan əvvəl ermənilərin satqınçılığı, separatçılığı, ikiüzlülüyü, xəyanətkarlığı haqqında məqalələrində gətirdiyi faktlar bu gün üçün aktual olub, ermənilərin iç üzünü bir daha açıb göstərir. Alimin 1937-ci ilə qədər nəşr olunmuş elmi işləri yalnız Azərbaycan mətbuatında deyil, həmçinin «Sovetskaya arxeologiya» məqalələr məcmuəsində və «Sovetskaya etnoqrafiya» jurnalında çap edilmişdir. Uğurlu çöl axtarışları, müxtəlif tarixi problemlərlə bağlı dərin tədqiqatlar və elmi-təşkilati işlərdəki müvəffəqiyyətlər az vaxt içərisində onu nəinki Azərbaycanda, hətta bütün İttifaqda arxeologiya və etnoqrafiya üzrə görkəmli mütəxəssis kimi tanıtmışdı. Ə.H.Ələkbərov Moskvada çıxan İttifaq əhəmiyyətli «Sovetskaya etnoqrafiya» jurnalının redaksiya heyətinin üzvü idi [23, c.153-172].

O, həm də gözəl fotoqraf idi. Məhz onun səyi nəticəsində 20-ci illərdə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Mərkəzi İdarəsinin katibi vəzifəsində işləyərkən burada foto laboratoriya yaratmışdı. Təkcə bir il ərzində Azərbaycanın müxtəlif rayonlarına təşkil edilən səfərlər nəticəsində laboratoriya 1000-dən artıq fotoşəkillə zənginləşmişdi. Ə.Ələkbərovun elmi fəaliyyəti olduqca qısa bir dövrü əhatə etsə də çox dəyərli nailiyyətlərlə nəticələnmişdi. Cəmi 15 il elmi yaradıcılıq fəaliyyətində olan Ə.Ələkbərov bu qısa müddətdə Azərbaycan ərazisində onlarca qiymətli maddi-mədəniyyət abidələri aşkara

çı-xarmış, maraqlı etnoqrafik tədqiqatlar aparmış, otuzdan artıq böyük elmi əhəmiyyətli əsər yazmışdır [23, 153-172].

İlk Azərbaycan arxeoloq və etnoqraflarından biri, tarix elmləri namizədi, Azərbaycan SSR Əməkdar elm xadimi İsaq Cəfərzadə (1895-1982) 1925-ci ildən Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin və eyni zamanda Azərbaycanın Qədim abidələrinin Mühafizə Komitəsinin üzvü olmuşdur. 1926-cı ildə İ.Cəfərzadə Azərbaycan Dövlət Muzeyinin elmi işçisi vəzifəsinə qəbul edilmiş və ömrünün sonuna qədər elmi fəaliyyətini Azərbaycanın ərazilərinin arxeoloji və etnoqrafik tədqiqatlarına həsr etmişdir. 1925-1926-cı illərdə Azərbaycanın tarixi-arxeoloji və etnoqrafik cəhətdən öyrənilməsinin başlanğıcı olmuşdur. Həmin illərin arxeoloji və etnoqrafik ekspedisiyaları Azərbaycan xalqının uzaq keçmişinin təsərrüfatına və mədəniyyətinə dair qiymətli materiallar əldə edərək, Azərbaycan tarix elmini yeni dəlillərlə zənginləşdirmişdir. Bu illərdə akademik İ.İ.Meşşaninovun rəhbərliyi altında geniş tədqiqat işləri aparılmışdır. İ.Cəfərzadə Qəbələ, Xocalı, Qızılvəng, Çovdar, Yaloylutəpə (1924-1926), Örənqala (1934) və s. arxeoloji ekspedisiyalarında, həmçinin onlarca etnoqrafik səfərlərdə iştirak etmişdir. O, 1929-cu ildə rus alimlərinin təcrübəsini mənimsəmək məqsədilə Qara Dəniz sahilində yerləşən qədim yunan şəhəri Oliviyanı öyrənən arxeoloji ekspedisiyanın çöl qazıntı işlərində iştirak edir. Bu işi qurtardıqdan sonra Odessa, Xersones və Kiyev Tarix Muzeylərinin quruluşu və ekspozisiyası ilə diqqətlə tanış olur [6; 10, s. 106, 111-119, 410].

Həmin dövrdə təşkil edilmiş arxeoloji ekspedisiyaların nəticələrinə, ümumiyyətlə bu sahədə Cəmiyyətin fəaliyyətinə respublika miqyasında böyük maraq göstərilirdi. Ekspedisiya işlərinin vüsətini artırmaq və coğrafi əhatəsinin genişləndirmək üçün Cəmiyyət bütün mövcud imkanlardan geniş istifadə edirdi. Ekspedisiyalarının materialları mətbuat səhifələrində dərc olunurdu. Bu yolla Cəmiyyət yalnız xalqımızın qədim maddi-mədəniyyət abidələrini tədqiq etmir, həm də onun xalq arasında geniş təbliği üçün imkan yaradırdı.

Numizmatika elminin inkişafı və Azərbaycan sikkələrinin hərtərəfli elmi öyrənilməsi professor Y.A.Paxomovun adı ilə bağlıdır. O, Azərbaycan Dövlət Muzeyinin yaradılmasının təşəbbüsçülərindən biri, muzeyin numizmatika kabinetinin təşkilatçısı və dəyişilməz mühafizi olmuşdur. Paxomov arxeologiya, numizmatika, memarlıq, epiqrafika, mənbəşünaslıq, diyarşünaslıq, Azərbaycanın və Şərqin tarixi coğrafiyası məsələləri ilə də eyni uğurla məşğul olur, həm də Azərbaycan Dövlət Universitetində numizmatikadan və

arxeologiyadan mühazirələr oxuyurdu. Y.A.Paxomov Cəmiyyətdə işlədiyi günlərdən sikkə axtarışı, təkcə Azərbaycan əhalisində deyil, qonşu respublikalarda da belə kolleksiyaların olmasına dair məlumatın toplanması ilə yaxından məşğul olmuşdur. O, belə məlumatlara, numizmatika tapıntılarının uçotuna və pasportlaşdırılmasına olduqca ciddi yanaşır və Azərbaycan ərazisində hər il tapılan çoxsaylı sikkə dəfinələrinin vaxtlı-vaxtında muzeyə daxil olmasına son dərəcə böyük əhəmiyyət verirdi. Y.A.Paxomov 1928-ci il iyunun 24-dən sentyabrın 7-dək Moskva və Leninqradda ezamiyyətdə olarkən əvvəlcə Moskva Tarix Muzeyində, P.V.Zubovun buradakı zəngin Tarix-numizmatika kitabxanasında Azərbaycan numizmatikasına dair tədqiqatlar aparmışdır. Alim numizmatikaya dair ədəbiyyatdan, Sasani epiqrafisindən (Dərbəndin Sasani epiqrafikasının nəşri üçün), muzeyin Azərbaycana aid arxeoloji eksponatlarından, məsələn, Fyodorovun Qızılvənqdəki qazıntı materiallarından və s. istifadə edirdi. Görülmüş işə dair hesabatlara əsasən, o, Moskvanın kitabxanalarında və maddi-mədəniyyət xəzinələrində Azərbaycana aid materialların olub-olmadığını öyrənirdi. Məsələn, Y.Paxomov Moskvadakı Ümumittifaq filatelçilər cəmiyyətinin mərkəzi idarəsində işləyərkən Azərbaycan üçün də az əhəmiyyəti olmayan iri (bir neçə pud) Şərq sikkələr ehtiyatı ilə rastlaşmışdı. O, bukinist mağazalarını gəzərək Azərbaycana dair Bakıda olmayan kitabları axtarmış, Cəmiyyətin kitabxanası üçün bir neçə nadir nəşr əldə etmişdi. Sonra o, Leninqradda - Ermitajda və Asiya muzeyində işləyərək Azərbaycana aid zəngin numizmatika materialı toplamışdır. Asiya muzeyində Azərbaycanın tarixinə dair əlyazması materialları - «Qarabağnamə»lərin müəllifləri Mirzə Camal və Mirzə Adıgözəl bəyin əsərləri (həmin əsərlər hazırda Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır), habelə epiqrafik abidələr (Buzovna kitabəsi) aşkar edilmişdi [3, f. 389, siy.1, qov. 24, v. 1]. Bu tapıntıların qeydiyyatı və öyrənilməsi nəticəsində «Azərbaycanın və Qafqazın digər respublika, diyar və vilayətlərinin sikkə dəfinələri» adlı doqquz buraxılışdan ibarət nəşrlər seriyası meydana gəldi. Bu nəşrlər respublika tarixinin öyrənilməsində numizmatika materialının əsl yerini və əhəmiyyətini müəyyənləşdirən birinci dərəcəli mənbə idi. Y.A.Paxovomun sikkə kolleksiyaları onların meydana gəldiyi vaxtdan dövrümüzədək bütün inkişaf və yayılma dövrlərini əhatə edir. 1926-cı ildə Azərbaycan Dövlət Muzeyinin Y.A.Paxomov tərəfindən tərtib olunmuş sikkə kolleksiyasının ilk buraxılışı oldu. Bu iş sonrakı illərdə də (1966-cı ilədək) davam etdirildi. Y.A.Paxomov özünün sikkə kolleksiyasını dörd muzey-Leninqrad Ermitaji və Moskvadakı Dövlət Tarix Muzeyi, Azərbaycan və Gürcüstan tarix muzeyləri arasında bölün-

məsini vəsiyyət etmişdir. E. ə. V əsrdən başlayaraq, Asiya və Afrika ölkələrinin müasir pullarına qədər 46 mindən artıq sikkədən ibarət olan kolleksiya böyük elmi əhəmiyyətə malikdir, onun maddi dəyəri isə ölçüyəgəlməzdir. Burada həm Şərq, Gürcüstan, Azərbaycan, Qızıl Orda, Rusiya, həm də digər ölkələrin sikkələri vardır. Kolleksiyadakı Azərbaycanda kəsilmiş sikkələrin sayı Ermitajda və Tarix Muzeyində birlikdə olduğundan çoxdur. Kolleksiyanın antik dünyanın, Qədim Romanın, ellin Şərqinin, İran və Azərbaycanda türk, İran və monqol sülalələrinin bütün sikkələri, Azərbaycan ərazisində kəsilmiş bütün sikkələr, XVI-XIX əsr Rusiya sikkələri daxil olan ən əhəmiyyətli hissəsi Azərbaycan Tarixi Muzeyinə verilmişdi. Arxivdə 70 min kartdan ibarət və böyük elmi əhəmiyyətə malik Şərq numizmatikası kartotekası xüsusi yer tuturdu. Alim kartotekaya bütün ömrü boyu məlumat topladığı sovet və xarici ölkə külliyyatlarını daxil etmişdi. Kartlarda sikkələrin müfəssəl təsviri, habelə fotoşəkilləri və ottiskləri verilmişdir. Kartoteka Ermitaja, dərc olunmamış natamam əlyazmaları, qeydlər, sovet və xarici ölkə alimləri ilə yazışmalar və s. isə SSRİ EA Arxeologiya İnstitutuna verilmişdir [16, c. 4].

Bu illərdə Azərbaycan ərazisində alban, latın, ərəb, pəhləvi, fars, türk dillərində yazılmış bir çox epiqrafik abidələr aşkar edilmişdir. Kitabələrin qeydə alınması işi 20-ci illərin əvvəlindən başlamışdır. Azərbaycan Dövlət Muzeyinin, Azərbaycan Arxeoloji Komitənin, Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyətinin xəbərlərində kitabələr haqqında ilk dəfə çıxış edən alimlər: Riza Həqqi, İ.Əzimbəyov, Ə.Ələkbərov, D.Şərifov, Q.Sadiqi, R.Əfəndiyev, E.Paxomov olmuşdur. Ümumiyyətlə, respublikada epiqrafikanı bir fənn kimi yaratmaq və onları həqiqi tarixi mənbəyə çevirmək üçün təşəbbüslər hələ keçən əsrin 40-cı illərindən başlamışdır [1, s.14].

Cəmiyyətin 20-ci illərin əvvəlində apardığı arxeoloji tədqiqatlar qədim mədəniyyətlərin əsas növlərinin Azərbaycan ərazisində yayılma bölgələrinin təxmini xəritəsini tərtib etməyə imkan verdi. Xəritədə dörd qazıntı növünün yayıldığı bölgələr göstərilmişdir. Bir-birindən fərqləndirilmək məqsədilə onlar ilk dəfə aşkarlandıqları yerlərlə: Xocalı - Gədəbəy, Qızılvəng (Qızılburun), Yaloylutəpə, Küp qəbirlər mədəniyyəti adıyla adlandırılmışlar.

Yuxarıda deyilənlərə xülasə olaraq, qeyd edək ki, qədim və erkən orta əsr dövrlərinə aid yerli yazılı mənbələr olmadığından ilk vaxtlar qədim Azərbaycan tarixinə dair tədqiqatlar, daha çox, arxeoloji istiqamətdə aparılırdı. O zaman mixi yazılarındakı və digər Şərq mənbələrindəki, antik müəlliflərin əsərlərindəki məlumatlara lazımi diqqət yetirilmirdi. Şərq mənbələri Azərbaycan tarixini öyrənmək baxımından hələ xüsusi tədqiqat obyektinə çevril-

məmişdi. Zəngin arxeoloji tapıntılar Azərbaycan tarixinin haqqında yazılı mənbələrdə məlumat olmayan ən qədim dövrlərinə işıq salırdı [15, c. 109]. Dağlıq Qarabağ zonasına, Naxçıvan vilayətinə, Gəncə bölgəsinə, Mil düzünə, Lənkəran, Nuxa qəzalarına, Yaloylutəpəyə, Qəbələ zonasına ilk iri arxeoloji ekspedisiyalar artıq bir çox maraqlı nəticələr vermiş və elm qarşısında indiyədək də tam şəkildə həll olunmamış bir sıra yeni problemlər qoymuşdular. 20-ci illərdə təkcə Azərbaycanda deyil, bütün ölkədə diyarşünaslıq hərəkatı genişlənmişdi. Bakıda və respublikanın qəzalarında onlarca diyarşünaslıq muzeyləri açılır, arxeologiya məhdud paytaxt mütəxəssislərinin və asari-ətiqə həvəskarlarının məşğuliyyəti olmaqdan çıxırdı. Ekspedisiyaların və qazıntıların təşkili ilə bağlı xərclər respublikanın dövlət büdcəsində nəzərdə tutulmağa başladı. 20-ci illərin əvvəlindən arxeologiya yeni təşkilat formaları və miqyası kəsb edərək, tam hüquqlu elmi istiqamətə çevrildi. Həmin illərdə arxeologiyada baş verən daxili irəliləyişi qiymətləndirmək çətindir.

İnqilabaqədərki elmdən Azərbaycan tarixinin bütün dövrlərinə aid külli miqdarda arxeoloji kolleksiyalar miras qalmışdı. Təəssüf ki, onların bir çoxu ölkədən çıxarılmış və talan edilmişdi. Bu materiallar zəngin olsa da, heç də həmişə elmi cəhətdən pasportlaşdırılmamış (arxeoloji tapıntıların aşkar olunduğu yerlər qarışıq salınmış, erkən və sonrakı təbəqələr ayırd edilməmiş) və tarix elminin tərkib hissəsi kimi, arxeologiyanın qarşısında duran yeni vəzifələrə heç də həmişə cavab vermirdi. Arxeologiyaya yeni baxış qazıntı obyektlərinin seçilməsində əsaslı dönüş yaratdı: arxeoloqlar kurqanların və antik şəhərlərin öyrənilməsi ilə yanaşı, yaşayış yerlərinin, şəhər məskənlərinin, iri şəhərlərin - bir sözlə, cəmiyyətin təsərrüfat-sosial tarixini açıb-göstərməyə imkan verən bütün məskənlərin tədqiqi ilə məşğul olmağa başladılar. Cəmiyyətin arxeologiya komissiyasının əməkdaşları bütün ölkədən respublikaya gələn arxeoloqlarla birgə, qızğın diskussiyaların aparıldığı, yeni tədqiqat metodlarının müzakirə olunduğu, respublikada yaşayan bütün xalqların pərakəndə tarixinin və qonşu dövlətlərin tarixinin bir araya gətirildiyi böyük yaradıcılıq laboratoriyasında birləşdilər. Bu laboratoriyada tarixi qaynaqların bütün növləri: antropologiya və etnoqrafiya, dilçilik və eposun öyrənilməsi, yazılı mənbələr və incəsənət tarixi qaynayıb qarışır, onların hamısı üç formasiyanın – ibtidai icma quruluşunun, quldarlıq və feodalizm quruluşlarının daha dolğun və hərtərəfli canlandırılması üçün sintezləşdirilirdi. Arxeologiya komissiyasının işində tarixçilər, sənətşünaslar, sosioloqlar, din tarixçiləri və dilçilər iştirak edirdi.

O vaxtkı tədqiqatlardakı bütün mənfi hallara (tələsik ümumiləşdirmələr, mənbələrin kifayət qədər dərindən təhlil edilməməsi, tarixçi və dilçilərin yoxlanılmamış konsepsiyalarına aludəçilik) baxmayaraq, həmin illər yaddaşımızda yeni elmin yaranması, Azərbaycan arxeoloqlarının ilk nəslinin formalaşması, zəngin milli irsimizlə tanışlıq, nəbzi indi də duyulan gərgin yaradıcılıq axtarışları dövrü kimi həkk olunmuşdur.

1930-cu illərin əvvəllərində arxeologiya, numizmatika, epiqrafika tarixinə önəmli bir dövr kimi düşmüşdü və məhz o illərdə sözügedən sahələr sovet tarix elminin tərkib hissəsinə çevrilmişdi.

## Ədəbiyyat


1. Arxeoloji, etnoqrafik məcmuə. Bakı, 1995, s.14
2. Azərbaycan arxeologiyası. Orta əsrlər. Altı cilddə, VI cild. Bakı, 2008.
3. Azərbaycan Respublikası Dövlət arxivi.
4. Bombeyli professor C.Modi Azərbaycan haqqında. – Maarif və mədəniyyət, 1925, №2 (ərəb əlifbası ilə).
5. Bünyadov, T.Ə. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, 1960, s. 14.
6. Əhmədov, Q.M., Muradova F.M. Axtarışda keçən ömür. – Azərbaycan SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1978, №1.
7. Əliyev, V. Azərbaycan arxeologiyası 60 ildə. – Elm qəz., 2005, 14 dekabr.
8. Xəlilbəyli, H. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyətində filologiya məsələləri. Bakı, 1999.
9. İbrahimova, İ. Azərbaycanda arxeologiya elminin təşəkkülü (tarixi-arxeoloji tədqiqat). Tarix elml. nam. dis. avtoref. Bakı, 2007.
10. Kərimova, T. Azərbaycan Milli Elmlər Akademiyasının yaranması. Bakı, 2015.
11. Quluzadə, A., Quliyev R. Arxeologiya və etnoqrafiya, 2006, №1.
12. Məmmədova, A. Azərbaycanın tunc dövrü mədəniyyətinin öyrənilməsi tarixi və onun problemləri. Bakı, 2001.
13. Vəkilov, M. Azərbaycanda mədəni inqilab: 1920-1940-cı illər. Bakı, 2005.
14. Алекперов, А. Исследования по археологии и этнографии Азербайджана. Баку, 1960.
15. Алиев И.Г., Алибекова Э. Изучение древней истории в Азербайджане за годы Советской власти. – Вестник древней истории, 1977, № 4.
16. Баку, 1965, 1 декабря.
17. Голубкина, Т.И. Русские ученые и развитие археологии в Азербайджане. – Материалы научной сессии, посв. 250-летию АН СССР. Баку, 1974.

18. Джафарзаде, И.М. Развитие археологических работ в Азербайджанской ССР. – Известия АН Азербайджанской ССР, 1945, № 6.
19. Известия Общества обследования и изучения Азербайджана, 1927, №4.
20. Известия Общества обследования и изучения Азербайджана, 1926, №1.
21. К истории Азербайджанского Археологического Комитета. – Известия Азербайджанского Археологического Комитета, вып. 1. Баку, 1925.
22. Керимова, Т. Археологическая наука Азербайджана (20-е годы ХХ столетия). – Azərbaycan və azərbaycanlılar, 2006, №5-12.
23. Керимова, Т. Жизнь и творческий путь Алескера Гаджи Кязим оглы Алекперова: В серии «20-30-е годы ХХ века в судьбах азербайджанской интеллигенции». – Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri. İctimai elmlər seriyası, 2015, №1.
24. Керимова, Т. Из истории Национальной Академии наук Азербайджана. Баку, 2005.
25. Керимова-Коджаева, Т., Садыгова И., Алиев И. Алескер Гаджи Кязим оглы Алекперов: Жизнь, творчество, судьба ученого (Документы, материалы, письма, хроника, статьи, библиография). Баку, 2015.
26. Миллер, А.А. Археологические исследования в Нахичеванской Республике летом 1926 г. – Сообщения ГАИМК, вып. 1. Л., 1926.
27. Народное образование в Советском Азербайджане (1920-1927 гг.). Баку, 1928.
28. Панорама, 1997, 28, 29 ноября.
29. Резолюции Первого Всеазербайджанского Краеведческого съезда. в Баку, 21-24 сентября 1924 г. – Баку, 1924.
30. Собрание узаконений и распоряжений правительства Азербайджанской ССР (СУ Азербайджанской ССР), 1921, № 12, ст. 256.

## Summary

# Research of material culture monuments in Azerbaijan (1920-1940s of the 20th century)

**Tamilla Kerimova**

The article covers the problem of studying the material culture of Azerbaijan in the 20-40s of the XX century. Here was reflected new opinion about emergence of the archeology science, development of numismatics, epigraphy and architecture, training of relevant national specialists, organization of numerous scientific expeditions. The article profoundly researched organizational forming of Azerbaijani national archaeology science, its wide spreading and its developing to an independent scientific branch.
**Key words:** archeology, numismatics, scientific societies, scientists, material culture, expeditions.

## Резюме

# Исследование памятников материальной культуры в Азербайджане (1920-1940-е годы 20-го века)

**Тамилла Керимова**

В статье освещена проблема изучения материальной культуры Азербайджана в 20-40-е годы XX века. Создание науки археологии, развитие нумизматики, эпиграфики и архитектуры, подготовка национальных кадров в этой области, организация многочисленных научных экспедиций обрели новое лицо. В статье подробно изучены в этот период становление азербайджанской национальной археологической науки с организационной точки зрения, ее широкий масштаб и превращение в самостоятельную научную область.
**Ключевые слова:** археология, нумизматика, научные общества, ученые, материальная культура, экспедиции.